Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Haqq aşığı

**Aşıq Hüseyn Bozalqanlının anadan olmasının 155 illik yubileyi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Nərgiz Məcidova**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Haqq aşığı:** Aşıq Hüseyn Bozalqanlının 155 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed. N. Məcidova; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. – Bakı: F.Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018.- 29 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Haqq aşığı

Azərbaycan xalqı min illərdir ki, şifahi ədəbiyyatın geniş qollarından birini təşkil edən, aşıq yaradıcılığı ilə özünün gözəl nümunələrini yaratmışdır. Dədə Qorquddan üzü bu yana babalarımız saz-söz ilə övladlarını döyüşə ruhlandırıb, onlara xeyir-dua vermişlər. Söylədikləri peşəkar aşıq nümunələri ilə gənc nəsillərə ali dəyərlər olan şərəfi, ləyaqəti, namusu, anaya vətənə, torpağa məhəbbəti, ülvi sevgi duyğularını aşılamışlar. Aşıqlarımız isə bu dəyərlərin daşıyıcısı olaraq, xalqını yaxşı əməllərə, haqqa, ədalətə səsləmiş, milli-mənəvi varlığımızın qorunmasında təkrarsız rol oynamışlar. Belə aşıqlarımızın arasında Aşıq Hüseyn Bozalqanlının da adını çəkə bilərik.

Aşıq Hüseyn Bozalqanlı Sovetlər dövründə yaşamasına baxmayaraq, onun yaradıcılığında aşığın külliyyatının yandırılması və yaradıcılığının it-bata düşməsi bu gün onun yaradıcılığı haqqında dəqiq məlumatların ötürülməsi işini çətinləşdirir. Ancaq xalqımızın ədəbiyyata olan sevgisinin nəticəsidir ki, ustad sənətkarların irsi xalq tərəfindən qorunub, yaşadılıb və günümüzə kimi bir qismi gəlib çatmışdır. Aşıq Hüseynin apardığı toylar, məclislərdə bədahətən dediyi şeirlər bu gün də dillərdən düşməmişdir. Bu bir daha Azərbaycan xalqının ədəbiyyata, aşıq sənəti, onun nümayəndələrinə və poeziyasına verdiyi ən böyük qiymətin olduğunu göstərir.

## Həyat və yaradıcılığı

Aşıq Hüseyn Bozalqanlı 1863-cü (1868) ildə Tovuz rayonunda Bozalqanlı kəndində anadan olub. Kənddə yeni açılan dini məktəbdə, molla Səməd Axundun məktəbində üç il təhsil aldıqdan sonra ərəb və fars dillərini mükəmməl öyrənib. Çox kiçik yaşlarından şeirə, sənətə bağlı olduğundan, hələ on iki yaşında ikən şeir yazmağa başlayıb. Toylarda, məclislərdə aşıqlara qulaq asıb, aşıq sənətinə də uşaqlıqdan valeh olub.

Cəmi üç ay Aşıq Məmmədquluya şagird olan aşıq həmişə hazırcavab, özünə inamlı olub. Aşıqlarla deyişmədə sözünü birinci deməyən aşıq, öz rəqibinə fürsət verib və nəticədə təmkinlə qalib gələrmiş.

Görkəmli sənətkar, Qurbani, Abbas Tufarqanlı, Vaqif kimi sənətkarların irsilə tərbiyələnib, aşıq poeziyasının bütün formalarında yaratdığı şeirlərlə - gözəlləmələr, qoşmalar, təcnislər, dodaqdəyməzlər, divanilər, gəraylılar, dastanları ilə aşıq və şairlər içərisində həmişə seçilib.

Aşıq Hüseynin Azərbaycan xalq yaradıcılığının inkişafında da böyük xidməti olub. O, "Qara Tanrıverdi", "Nəriman", "Xanlar", "Hacı Tağı" dastanlarının yaradıcısıdır. "Koroğlu" dastanının ən kamil bilicisi məhz Aşıq Hüseyn hesab edilib. Dastanın bir neçə qolu - "Koroğlunun Toqat səfəri", "Bağdad səfəri", "Həmzənin Qıratı aparması", "Koroğlunun vuruşması" və s. qolları məhz Aşıq Hüseynin dilindən yazılıb.

Onun Ərdəbil rayonunun Xalxal şəhərinə səfəri ilə bağlı bir dastanıda vardır. Bu dastan haqqında məlumatı İran Aşıqlar Birliyinin sədri Aşıq Səlcuq Şəhbazi vermişdir.

Bu böyük sənətkar yaradıcılığında öz dövrünün görkəmli tarixi şəxsiyyətləri ilə qarşılaşıb və həmişə də onların məhəbbətini qazanıb.

Aşıq Metex qalasında həbsdə olarkən N.Nərimanovla da yaxından tanış olub ona "Qoca Şərqin Nərimanı gəlirmi?" şeirini və "Nəriman" dastanını yazıb.

Bədahətən söz deməkdə əvəzi olmayan Aşıq Hüseyni sevimli Xalq şairimiz Səməd Vurğun "əli qılınclı şair" adlandırmış və həmişə ona dərin məhəbbət bəsləmişdir.

"Geri dur" müxəmməsi və digər şeirlərindən aydın olur ki, Hüseyn Bozalqanlı Sədi, Firdovsi, Füzuli kimi klassiklərin əsərlərinə də dərindən bələd olub. Satira isə onun yaradıcılığında xüsusi yer tutub. Müxəmməslərində satirik poeziyamızın novatoru Sabir duyğuları duyulub. 1940-cı ildə yazdığı "Bilin" müxəmməsi buna gözəl misaldır.

O müasirləri  - Aşıq Ələsgər, Xəyyat Mirzə, Aşıq Ağacan, Qazaxlı Mirzə Səməd, şair Vəli, şair Nəcəf və b. ilə deyişib. Onun Aşıq Ələsgərlə deyişməsindəki fikirlərin dərinliyi, şeirlərdəki bütövlük, məzmun və forma harmoniyası Azərbaycan poetik dilinin zənginliyindən və onun böyük potensial imkanlarından xəbər verir.

Aşıq Hüseyn Bozalqanlının poetk irsi Azərbaycan aşıq ədəbiyyatında özünəməxsus yer tutmuş, onun ustadnamələri, gəraylıları, qoşmaları, təcnisləri, divaniləri, müxəmməsləri və həcvləri aşıqların repertuarında mühüm yer tutaraq dillər əzbərinə çevrilmişdir.

Qırxlar piri özü verib dərsimi,
Şair cərgəsində sana düşmüşəm.
Arif məclisində, alim yanında,
Neçə-neçə imtahana düşmüşəm.

Aşığın aşıq sənəti qarşısındakı ən böyük xidmətlərindən biri də onun aşıq məktəbi yaratması olmasıdır. Hansıki Vəli Əlimərdanlı, Aşıq Nəcəf, Aşıq Mirzə Bayramov, Aşıq Ələkbər Ələsgərov və b. bu məktəbin davamçıları olmuşdur.

## Aşıq yaradıcılığının kitabxanalarda təbliği

Aşıq yaradıcılığı xalqımızın mədəniyyətini dərin türk köklərinə bağlayan bir folklor növü olduğundan Azərbaycan aşıq sənətinin öyrənilməsi, təbliği, dünyaya tanıdılması mədəniyyətimizin qarşısında duran vəzifələrdən biri sayılır. Fərəhləndirici haldır ki, son zamanlar bu iş ardıcıl şəkildə, elmi əsaslarla, yüksək səviyyədə ölkəmizdə aparılır. Zəngin mədəni irsimizin tərkib hissəsi olan aşıq sənətinin təbliği həm xalqımızın mənəvi təkamülünə, həm də dünya mədəniyyətinin bu sənət inciləri ilə zənginləşməsinə xidmət edir. Aşıq yaradıcılığı böyük mədəniyyət nümunəsidir. Onu başqa sənətlərdən fərqləndirən cəhətlərindən biri də çoxtərəfli yaradıcılıq imkanlarının olmasıdır. Bunlara söz sənətini, musiqini, rəqs elementlərini və ən nəhayət, ifaçılığı nümunə göstərmək olar. Söhbət açdığımız Aşıq Hüseyn Bozalqanlının deyişmələrində də bu elementlərin vəhdəti hiss edilir.

2009-cu ildə "Azərbaycan Aşıq sənəti" UNESCO-nun Qeyri-maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir.

Mədəniyyət müəssisəsi olaraq kitabxanalarda aşıq sənətini qoruyub saxlamaq üçün aşıq ədəbiyyatı nümunələrinin təbliğinə də xüsusi yer verilir. Kitabxanada Aşıq sənətinin təbliği məqsədilə sərgilər, kitab təqdimatları, bu sahənin biliciləri, aşıqlarla, bu sənətin görkəmli nümayəndələri ilə görüşlər, kitab həftələri, söhbətlər, konfranslar, ədəbi-bədii gecələr keçirilə bilər. Həmçinin elektron məlumat bazasında məlumatların yerləşdirilməsi, elektron kitabxana yaradılması işi təbliğat üçün bir vasitədir. F. Köçərli adına Respublika Uşaq kitabxanasında da bu səpkidə müəyyən yaş qrupuna daxil olan uşaqlarla təbliğat işləri aparılır. Bu il 100 illik yubileyi qeyd edilən Azərbaycan şifahi xalq ədəbiyyatının görkəmli nümayəndəsi olan Aşıq

Hüseyn Bozalqanlının gəraylıları, təcnisləri, ustadnamələrinin təbliği yuxarı sinif şagirdləri üçün məqsədəuyğundur.

Kitabxanada keçirilən kitab sərgiləri yubiley münasibətilə keçirilən tədbirlərdə təbliğat işlərində daha önəmlidir. Sərgidə aşığın yaradıcılığından dövri mətbuatda və jurnallarda çıxan materiallardan da istifadə edə bilərik. Aşıq ədəbiyyatına aid kartoteka təşkil etmək üçün kitabxanada əvvəlcə mövzu – *"Azərbaycanın aşıq sənəti"* başlığı altında ümumi məlumatlar, sonra isə ayrılıqda bu aşıqlar haqqında kitab, qəzet və jurnallarda olan məqalələrin biblioqrafik təsvirini yazıb kartotekaya yerləşdiririk. Bu da oxucu sorğusuna tez cavab verməyə kömək edir.

Kitabxanalarda həmçinin müxtəlif mövzulardan istifadə etmək üçün məlumatlar, kitabxananın saytında da yerləşdirilir. Kitabxanamızın clb.az saytında Aşıq Hüseyin Bozalqanlı haqqında hazırladığımız bu vəsaitdə saytda yerləşdiriləcək.

**Haqq aşığı:** metodik vəsait tərt. ed. N. Məcidova, S. Əhmədova; ixtis. red. və bur. məs. Ş. Qəmbərova; F. B. Köçərli adına Respublika Uşaq Kitabxanası, Bakı, 2018, 29 səh

Aşıq Hüseyn Bozalqanlının yaradıcılığının təbliği üçün aşağıdakı kitablarından istifadə etməklə yubiley sərgisi hazırlaya bilərik. Sərgini "*Haqq aşığının haqqı", "Əli qılınclı şair", "Koroğlu dastanının mahir bilicisi*" və s. adlandıra bilərik.

# Kitab sərgisi












**Söhbətlər** kütləvi-şifahi işin ən təsirli və geniş yayılmış metodlarından hesab edildiyindən bu tədbir forması öz çevikliyi və operativliyi ilə seçilir. Söhbətlər yaş qrupları üzrə və ya ayrı-ayrı şəxslərlə fərdi keçirilir. Mövzuya aid təşkil edilən söhbətlərdə məqsəd, əsasən Azərbaycan aşıqlarını tanıtmaqdır. Aşıq Hüseyn Bozalqanlı haqqında söhbətdə əsas məqsəd yubilyar haqqında materialın seçilib öyrənilməsi, onun haqqında əyani materialın toplanmasından ibarətdir. Söhbəti qəzet və ya jurnal məqaləsinin oxunuşundan, hər hansı bir sualın qoyuluşundan başlayırıq. Söhbət zamanı aşıq yaradıcılığı haqqında maraqlı suallardan da istifadə edə bilərik.
Bu sualları istifadəçilərə kömək məqsədilə təqdim edirik.

☺ Aşıq sənəti hansı elementləri özündə birləşdirir?

☺ Aşıq şeirinin janrlarından hansıları saymaq olar?

☺ Aşıq musiqisi nəyin müşayiəti ilə ifa edilir?

☺ Aşıq sənəti UNESCO-nun qeyri mədəni irs siyahısına neçənci ildən daxil olunmuşdur?

☺ 2009-cu ildən aşıq sənəti hansı təşkilatın qeyri mədəni irs siyahısına salınmışdır?

**Cavablar:**

1. Musiqi, poeziya, təhkiyə, rəqs, pantomima, teatr sənəti elementləri
2. Gəraylı, qoşma, müxəmməs, ustadnamə...
3. Sazın
4. 2009
5. UNESCO

Kitabxanada keçirilən **görüşlər** də çox əhəmiyyətlidir. Oxucular görüş zamanı yubilyarlar haqqında məlumat alır, onların yaradıcılığı ilə yaxından tanış olurlar, həmçinin onların tədqiqatçıları ilə canlı ünsiyyət yarada bilirlər. Bu canlı ünsiyyət zamanı oxucular yubilyar haqqında yazılmış kitab və ya öz kitabları haqqında məlumat alırlar. Görüşdə iştirak etmək üçün yaradıcı ziyalılar, mühazirəçilər, yuxarı sinif şagirdləri dəvət edilir. İştirakçıların diqqətini cəlb etmək, mənəviyyatımızın sirlərinə hərtərəfli bələd olmaqdan ötrü tarixi, mənəvi zənginliyimiz haqqında maraqlı məlumatları yüksək natiqlik məharəti ilə çatdırmaq, sözün qiymətini artırmaq, iştirakçılarda dərin təəssürat yaratmaq böyük əhəmiyyət kəsb edir. Görüşlərin səmərəli və keyfiyyətli təşkilinin gücü müasir texniki vasitələrin gücündən, indiyə qədər çap olunmuş materiallardan bəhs edən lent yazılarından, audio-video materiallardan istifadə olunmasıdır. Təəssüratların uzun illər yaşamasında görüşlərdə iştirak edən maraqlı şəxsiyyətlərin çıxışları mühüm əhəmiyyət kəsb edir. Məktəblilər ideallaşdırdıqları, əlçatmaz bildikləri həmin şəxsiyyətlərlə üzbəüz təmasda olduqdan sonra özləri də bu zirvəni fəth etmək arzusunda olurlar, onlarda müsbət keyfiyyətlər formalaşır, inkişaf edir.

## Kitab müzakirəsi

Oxucular arasında bədii ədəbiyyatı təbliğ etməyin ən geniş yayılmış şifahi üsulu kitab müzakirəsidir. Kitab müzakirəsi adətən hər hansı bir kitaba həsr edilir. Müzakirələr yeniyetmələrin oxucu fəallığının artmasına, bədii-estetik zövqlərinin formalaşmasına, kitab üzərində müstəqil işləmək, oxuduqları çap əsərləri haqqında sərbəst fikir yürütmək bacarığının yaranmasına təsir göstərir. Müzakirələrdə gənclər, yaşlılar, ziyalılar, şagirdlər, tələbələr və başqa oxucular fəal

iştirak edirlər. Bədii ədəbiyyata meylin yaranmasında belə müzakirələr böyük əhəmiyyət kəsb edir.

Kitab müzakirəsi üçün bədii ədəbiyyat nümunəsi seçərkən yubilyarın yaradıcılığında yer alan ədəbi janr kitabxananın oxucu kontingentinin maraq və sorğularına uyğun nəzərə alınır. Yubilyarın hər hansı kitabı seçiləndən sonra plan tərtib olunur, həmin hazırlıq planını bir qayda olaraq kitabxanaçılar müzakirə edirlər. Onun Kəlbəcər İstisuyundakı müalicəsindən, ustad Aşıq Həmid Bağırlı ilə yaxın dostluğundan, Kəlbəcər aşıqları ilə keçirdiyi məclislərdən, "İrəm bağı", "Cənnəti rizvan", Kəlbəcərin əsrarəngiz gözəlliyindən, qonaqpərvər, mərd insanlarından və zəngin folklor ənənələrindən bəhs edən "Aşıq Hüseyn Bozalqanlının Kəlbəcər səfəri" kitabı ətrafında yuxarı sinif şagirdləri ilə müzakirə təşkil edə bilərik. Bu dastanda XX əsrin əvvəllərində erməni daşnaklarının törətdiyi cinayətlər və o dövrdə yaşanan ictimai-siyasi hadisələr öz əksini tapmışdır.
*"Aşıq Hüseyn Bozalqanlının Kəlbəcər səfəri". – Dastan. – Bakı: Sabah. – 2004, 148 s.*

5-10 dəqiqəlik giriş sözü ilə açılan kitab müzakirəsində dastanın mühüm cəhətləri nəzərə çatdırılır. Çıxışlarda səslənmiş əsas fikirlər, mülahizələr və qeydlər ümumiləşdirilir, oxucuların əsər haqqında söylədikləri yanlış mühakimələrə düzəliş verilir, əsər bütövlükdə qiymətləndirilir.

Sonda yubilyar haqqında oxucuların nə qədər bilgili olduğunu bilmək üçün onlarla sual-cavab hazırlaya bilərik. Aşağıda "Sual-cavab"da istifadə etmək üçün suallar təqdim edirik.

1) Hüseyn Bozalqanlı kimdir?
   - **a) Şair, aşıq**
   - b) musiqiçi
   - c) yazıçı

2) Neçənci ildə anadan olmuşdur?
   a)1963
   **b)1863**
   c)1923

3) Aşıq Hüseyn Bozalqanlı hansı bölgənin aşıq məktəbinin nümayəndəsidir?
   a) Göyçə
   b) Şirvan
   **c) Tovuz**

4) Dövründə Aşıq Hüseyn Bozalqanlı hansı məşhur aşıqla görüşüb onunla deyişməsi olmuşdur?
   a)**Aşıq Ələsgər**
   b)Aşıq Alı
   c)Aşıq Ədalət

5) Başqa hansı aşıqlarla onun deyişməsi olmuşdur?
   ☺____________________________________

6) Aşıq Hüseyn Bozalqanlı hansı dastanın mahir bilicisi hesab edilirdi?
   a) "Qaçaq Nəbi"
   b) "Kitabi-Dədə Qorqud"
   c) **"Koroğlu"**

7) Aşıq Hüseyn Bozalqanlının söylədiyi Koroğlu dastanındakı "Durna teli"qolunun digər aşıqların söylədiyi həmin qoldan fərqi nədir?

**a) Durna teli ardınca gedən Koroğlunun dəlilərinin tutulma xəbərini Koroğluya tacir Xoca Əziz çatdırır.**

b) Bu xəbəri Giziroğlu Mustafabəy çatdırır.
c) Bu xəbəri biçinçi çatdırır.

8) Səməd Vurğun aşığı necə adlandırmışdır?
a) Əli qələmli şair
b) Əli sazlı aşıq
c) **Əli qılınclı şair**

9) Aşağdakılardan hansı Aşıq Hüseyn Bozalqanlının ustadnamələrindəndir?
a) **“Gərəkdir”**
b) “Üstünə”
c) “Bəxtəvər”

10) Koroğlu dastanın hansı qolu Aşıq Hüseyn Bozalqanlının dilindən yazıya alınmışdır?
a) Koroğlunun Tuhat səfəri
b) Həmzənin qıratı qaçırması
**c) Durna teli (Koroğlunun Bağdad səfəri)**

Müzakirə və söhbətlərin daha effektli olması üçün texniki vasitələrdən istifadə olunması məqsədəuyğundur. Bu zaman video lentlərdən, sənədli filmlərdən, slaydlardan istifadə etmək daha maraqlı olar.

Aşıq sənəti xalq arasında hər zaman hörmətlə qarşılanan bir sənət olduğu üçün sovet illərində də inkişaf edib. Amma bununla belə, aşıqlar respublika səviyyəli sənətkarlar kimi aşıq sənətini layiqincə təbliğ edib, Azərbaycan aşıq sənəti tarixi ənənələrdən çıxış edərək bu gün də yaşayıb nüfuz etməkdədir. Məlumdur ki, Aşıq Hüseyn Bozalqanlı dövrünün bir sıra məşhur aşıqları ilə görüşüb onlarla deyişməsi olmuşdur. Aşıq sənətini sevənlər və sənətkarlar tərəfindən çox vaxt hissə-hissə bu cür sənət

adamlarının yaradıcılığı qələmə alınıb bugünkü nəsillərə çatdırılıb.

Dastanın "Durna teli" qolu da bir çox aşıqların dilindən də o zaman qeydə alınmışdır. Onların arasında daha çox seçilən variantlar Aşıq Hüseyn Şəmkirli, Aşıq Hüseyn Bozalqanlı, Aşıq Əli, Aşıq Əsəd, Aşıq İsrafilin, Eyvaz Dəmirçioğlunun ifalarıdır. Aşıq Əsədin ifasında da Eyvaz, Dəmirçioğlu və Bəlli Əhməd durna teli üçün Bağdada getdikləri üçün, ədəbiyyatşünas Vəli Xuluflunun nəşrində bu qol **"Bağdad səfəri"** kimi də təqdim edilmişdir. Yubilyarın dilindən toplanmış dastanın bu qolundan parçanı kitabxanada oxucularla səhnələşdirə bilərik.

## Aşıq Hüseyn Bozalqanlı və "Koroğlu dastanı"

Koroğlu dastanı Azərbaycan xalqının qədim dastan örnəkləri içərisində xüsusi çəkisi olan bir dastanlardandır. Dastan hər zaman xalqımızın milli düşüncəsini, mübarizlik meyillərini özündə birləşdirməklə maraqlı olub. Məlum oldu ki, Aşıq Hüseyn Bozalqanlıda aşıq poeziyasının görkəmli nümayəndələrindən biri kimi dastanın yazıya alınmasında iştirak edib. O, yaradıcılığında ən önəmli hadisələrdən biri olan "Koroğlu" dastanının beş qolunu mükəmməl bildiyindən və onun dilindən daha mükəmməl ifa olunduğundan folklorşünas Vəli Xuluflu Koroğlunun son variantlarının hamısında məhz Aşıq Hüseyn Bozalqanlının ifasında olan "Toqat səfəri" və "Bağdad səfəri" qollarının çap edilməsini məsləhət bilir. Hər zaman xalqımızın milli qəhrəmanlıq düşüncəsini əks etdirən "Koroğlu" dastanının kitabxanada təbliği gələcək nəslin qəhrəmanlıq, vətənpərvərlik yöndən tərbiyələnməsində də xüsusi rol oynayır və oxuculara milli dəyərlərin təbliği üçün "Koroğlu" dastanı əsasında hazırlanmış tədbirlərində xüsusi rolu var.

*Aşıq Hüseyn Bozalqanlının dilindən söylədiyi səfərlərdən "Durna teli" qolu səfərini yuxarı sinif şagirdləri səhnələşdirə bilərlər.*

Səhnə qurulur, Koroğlu Dəmirçioğluyla xanımlarıda yanlarında durub dəlilərinin at sürmək, nizə oynatmaq səhnəsinə tamaşa edirlər. Bir də baxdılar ki, budu. Dəstə atlı çapa-çapa gəlir, qabaqlarında da Eyvaz. Amma Eyvaz, nə Eyvaz... Nigar xanım baxdı, özünü saxlaya bilmədi, üzün Koroğluya tutub dedi:
– Koroğlu bir bu yana bax, gör o gələn kimdi?

Sən demə Koroğlu da elə ona baxırmış. Nigar deyəndə Koroğlu sazı basdı döşünə dedi:

Nigar xanım, sənə deyim,
Bu gələn Eyvaz, bu gələn.
Əynində polad geyim,
Bu gələn Eyvaz, bu gələn.

Cəmi dəlilərin xası
Meydanda var mərd davası
Koroğlunun qoçbalası,
Bu gələn Eyvaz, bu gələn!

**Koroğlu:** Gəl, uşaqları göndərək bizə də durna teli gətirsinlər. Gəlib çatan Eyvazı göstərib: Gör necə yaraşıqlı görsənir.
**Eyvaz:** Xanımlar durna teli istəyir. İzin ver gedim onlara da durna teli gətirim.

Koroğlu bir istədi izin verməsin. Qorxdu ki, onları göndərər, başlarına bir iş gələr. Bir də fikirləşdi ki, getsə yaxşıdı. İgidin başı qalda gərək. Bərkə-boşa düşsələr gərək. Nigara dönüb baxan Koroğlu onların getməyinə razı olduğunu onun gözündən hiss edir. İşi belə görən Dəmirçioğlu da Koroğluya yaxınlaşıb deyir:
– İzin ver məndə gedim.

**Koroğlu:** Get.

Koroğlunun Dəmirçioğluna izn verdiyini görən Kosa Səfər tələsik gəlir:

– Sən təzə xəstəlikdən durmusan, yorğan-döşəkdən durmusan. Həmdə ki, durna telini Telli xanım istədi. Yaraşmaz ki, mən dura-dura başqası ona durna teli gətirsin. Özüm gedəcəm.

**Koroğlu:** İzn verirəm get!

Bunu görən Bəlli Əhməd də dəlilərin içindən çıxıb dedi:

– Koroğlu izn ver məndə gedim.

**Koroğlu:** Səndə qoşul onlara.

Eyvaz Qıratı minib, o biri dəlilərdə hərəsi bir at minib yola düzəlirlər. Bir göz qırpımında gəlib Bağdada çatırlar. Ox-yaylarını götürüb başlayırlar durna vurmağa. Bir-iki saatın içində bir aləm durna vururlar. Tellərini yolub heybələrə yığırlar. Bulağın başında yeyib içəndən sonra orda yuxuya gedirlər. Bu dəm Aslan paşanın adamları dincələn Koroğlu dəlilərini mühasirəyə aldılar. Onlar qıratın kişnəməsindən ayılıb görürlər ki, dörd bir yanı qoşun bürüyüb. Əlini qılınca atan Bəlli Əhmədin Dəmirçioğlu əlini saxlayıb deyir:

– Nə eləyirsən? Görmürsən Eyvaz yatıb? Onu oyatmamış dava eləmək olmaz. Sonra bir-birimizdən ayrı düşə bilərik. Eyvazın oyanmadığını görən Dəmirçioğlu sazın səsilə onu oyatmağa çalışır.

Qoşun gəlib dörd yanımız aldılar,
Belə nə yatmısan, ayıl, Eyvaz xan!...
Hər tərəfdən mansıraya saldılar,
Axırda olarıq zayıl, Eyvaz xan!

İnsafdırmı Bəlli Əhməd tutula,
Qulac qolu dal gərdəndən çatıla,
Dəmirçioğlu qul adına satıla,
Koroğlu dəlisi sayıl, Eyvaz xan!...

Eyvaz sazın səsinə yuxudan oyanır. Görür qoşunlar ətrafda onları mühasirəyə alıb. Dəlilər istəyirlər atlarını minib davaya qalxsınlar, baxırlar ki atları çoxdan tutub aparıblar. Aslan paşa da əmr verib ki, onlar da  tutulsun. Bu an dəlilər qılınclarını götürüb sağdan vurdular, soldan vurdular amma nə qədər qırdılarsa da düşmənin qoşununun ardı kəsilmirdi.

**Aparıcı:** Bu vaxt illərdi Koroğlu ilə dostluq etmiş Xoca Əziz mallarını satmaq üçün Bağdad bazarına çıxmışdı. Bazara birdən hay düşdü ki, üç nəfər quldur tutublar, asmağa aparırlar. Tacirlər burada Aslan paşanın əmri ilə kimlərin asılacağına tamaşa etmək üçün yığışmışdılar. Xoca Əzizdə onlara qoşuldu. Aslan paşada yanlarında dustaqları ortalığa gətirəndə Xoca Əziz Eyvazı, Dəmirçioğlunu, Bəlli Əhmədi tanıyır. Dünya onun gözündə qaralır. Onlara necə kömək edə biləcəyini fikirləşə-fikirləşə gözü Qırata sataşır onu da tanıyır. Birdən öz-özünə: "Tapmışam! Sonra gec olar, onları öldürəcəklər. Gərək qıratı ələ keçirim, bir göz qırpımında Koroğluya xəbər çatdırım.

(*Onları gözdən keçirən Aslan paşa əmr verdi.)*

– Özlərini zindana atın atları gətirin. Mehtərlər atları gətirirlər. Bəlli Əhmədlə, Dəmirçioğlunun atı Aslan paşanın xoşuna gəlir. Mehtər Qıratı minir, at yerindən tərpənmir. Aslan paşa bu atı istəmiyib, onu qoruqçuya verməyi əmr eləyir.

( *Sevinən tacir qoruqçunun yanına gəlir.)*

**Xoca Əziz:** Ay qoruqçu, neçə verim bu şilxor yabıya?

**Qoruqçu:** Ay balam, nə istəyirsən, deyinir.

*( Xoca Əziz qoruqçunu dilə tutub atı alır. Atı minib üz tutdu düz Çənlibelə.)*

**Dəlilər:** Qıratın səsini eşitcək tökülüb gəldilər. Qırat gəlir amma Eyvaz üstündə yoxdu. At özünü yetirir. Koroğlunun qabağında dayanır. Koroğlu atını qucaqlayır və görür ki, üstündəki adam zorla ayaq üstündə durur. Xoca Əzizdən xəbər alırlar əhvalatı, bu nə əhvəlatdı?

**Xoca Əziz dedi:** Qoç Koroğlu, sənə xəbər söyləyim,
Sənin Eyvazından xəbərin varmı?
Qaranlıq könlünü işıq eyləyim,
Sənin Eyvazından xəbərin varmı?

İgid də igiddən çəkərmi minnət?
Paşa qabağında buyurur cəllad.
Hanı Dəmirçioğlu, o Bəlli Əhməd?
Sənin Eyvazından xəbərin varmı?

Xoca Əziz xocaların qəhrində,
Xan Eyvaz da qızıl gülün təhrində,
Qolu bağlı gördüm Bağdad şəhrində,
Sənin Eyvazından xəbərin varmı?

Söz tamama yetişdi. Xoca Əziz sazla dediyi kimi, sözlə də dedi:

– Koroğlu! Eyvazı, Dəmirçioğlunu, Bəlli Əhmədi Aslan paşa tutub zindana salıb. Özünü yetirməsən, birdə onların üzünü görməyəcəksən.

Dünya Koroğlunun gözündə qaralır, tez Qıratın belinə sıçrayıb dəlilərə deyir: “Mən getdim sizdə ardımca gəlin”.

Xəbər verin dəlilərim oyansın
Tutulubdu bir Eyvazım, əldədi!
Misri qılınc qızılqana boyansın,
Tutulubdu bir Eyvazım, əldədi!..

Bir xəbər öyrənmək üçün Kosa Səfər yolda biçinçilərinə çörək aparan kişidən soruşurlar.

**Kosa Səfər:** Ay kişi bir dayan görüm belə haraya tələsirsən?

**Kəndçi:** Tələsirəm, tələsirəm. Çöldə biçinçilərim var. Onlara çörək aparıram. Tez şəhərə qayıtmalıyam.

**Kosa Səfər:** Şəhərdə nə var belə? Xeyir ola?!

**Kəndçi:** Aslan paşa Koroğlunun üç dəlisini tutub. Bu gün onları asacaqlar. Onlara tamaşa edəcəyik. Bu sözü kəndçidən eşidən Kosa Səfər onu boğub öldürür, sonra üz tuturlar şəhərə.
Biraz getmişdilər ki, yolda ağlaya-ağlaya biçin biçən bir kişiyə rast gəldilər. Koroğlu yaxın gəlib soruşur:
– Ay əmi niyə ağlayırsan?
**Biçinçi:** Neynirsən? Səndən ki dərdimə dərman olan olmayacaq, çıx get!

*( Koroğlu qocadan əl çəkmir.)*

**Biçinçi:** İndiki əl çəkmirsən, de görüm kimsən? Bu dəstə kimindi?
**Koroğlu:** Gəlmişik burdan mal aparmağa.
**Biçinçi:** De görüm, Koroğlunu tanıyırsan?
**Koroğlu:** Tanıyıram. Niyə tanımıram!
**Biçinçi:** İndi ki tanıyırsan, de görüm ona dost adamsan ya düşmən?
**Koroğlu:** Tutaq ki, dostam bunları məndən niyə soruşursan?

*Qoca əli ilə gözünü silib deyir:*

– Bizim bu Bağdadda çox hiyləgər bir adam var. Adına Aslan paşa deyərlər. Çox namərd adamdı. Üç gündü ki, Koroğlunun üç dəlisini tutub zindana salıb. Qocanı dinləyən Koroğlu dəlilərə tez əmr etdi ki, qocaya biçində kömək eləsinlər. Onlar tez qocanın otlarını biçib işi qurtardılar.
**Koroğlu:** Qoca, Koroğlu mənəm. Bu saat gedib o Aslan paşanın ürəyinə bir od qoyacağam ki, məhşərəcən yansın!
Koroğlu qocanın məsləhəti ilə şəhərə girəndə paltarını dəyişib aşıq paltarı geyindi.

Aslan paşa car çəkdirib camatı meydana yığmışdı. Cəlladlar dəliləri əli-qolu bağlı dar ağacının yanına gətirmişdilər. Dəmirçioğlu işi belə görəndə ümidi üzülür:

Hanı mənim qoç Koroğlum,
Gələ girə bu meydana!

Çəkəndə misri qılıncı
Qəbzəsi qana boyana!

Bu anda Koroğlu özünü yetirir. Dönüb dar ayağında olan Eyvaza, Dəmirçioğluna, Ballı Əhmədə baxır və söz söyləyir:

Dəlilərim, bu gün dava günüdü,
Müxənnət ölkəsin talamaq gərək!
Qoç igidlər yarasından bəllənər,
Şərbəttək qanına yallanmaq gərək!..

**Aslan paşa:** Sağ ol, aşıq! Lap Koroğlu kimi oxuyursan.

**Koroğlu:** Canım paşa, gözüm paşa,
Paşa, qoy gəlsin Eyvazı!
Budu sana sözüm paşa,
Paşa qoy gəlsin Eyvazı!..

Bağdad tərəflərdə qoçaq qollu Giziroğlu Mustafa bəy adlı bir igid də vardı. Həmişə o Koroğlu ilə qarşılaşmaq istəyirmiş, onunla haqq hesabı var idi. Aslan paşanın Koroğlunun üç dəlisini dar ağacına asdığıracağını xəbər tutur. Fikirləşir ki, bu kişilikdən deyil, onlara kömək etmək lazımdır. Adamlarını başına yığıb dedi:

...Hanı bu baxçanın gülü?
Oxumur şeyda bülbülü,
Koroğlu, üç əsir dəli,
Şirin candan keçən gəlsin!

**Giziroğlu Mustafa bəy:** Mənim Koroğlu ilə haqq-hesabım var, bir gün gələr görüşərik. Amma Aslan paşanın bu hərəkətinə dözə bilmirəm. Axı dəlilərin onunla bir işləri yoxuymuş. O, bu nakişiliyi eləyir ki, xotkara xoş gəlsin. Mən qoymayacağam onları öldürsün.

Onun adamları Giziroğlunun sözünü bəyənirlər. Yığılıb meydana gəlirlər.

Meydanda Koroğlu sazla oxuyur, Giziroğlu onu tanıyır. Dayanıb gözləyirlər.“Gücü çatmaz yəqin onda köməyə gedərəm ya ona verən Allah, ya mənə”. O, şeşpərini çıxardıb, fırladıb tullayır meydandakı məscidin günbəzinə. Şeşpər elə dəydi ki, günbəzə sanki günbəzdən od töküldü. Koroğlu məsələni başa düşdü. Üç dəlisini dar ağacının yanında görüb halı pisləşir. Cəlladlar gözləyirdilər ki, aşıq sözünü qurtarsın, onlar da işə başlasınlar. Bunu görən Koroğlu əlini başına çəkməklə dəlilərinə əmr edir, onlarda meydana tökülüşürlər. Koroğlu bir qılıncla Aslan paşanın başını üzür. Geri çəkilib dəlilərinə deyir:
– Gedək! Day burda bizlik bir iş yoxdu. İndi mənim bircə Giziroğlu Mustafa bəylə haqq-hesabım qaldı. Dəlilərim siz ayrı yolnan gedin mən ayrı gedəcəm. O gəlib Giziroğlu ilə qarşılaşır. Onlar bir-birləri ilə vuruşurlar. Koroğlu əmudu ilə Giziroğlunun başına elə vurur ki, o dığırlanıb çaya düşür. Koroğlu əlini uzadıb yapışır onun əlindən ki, çəkib bayıra çıxartsın. Giziroğlu deyir:
– Əlini saxla. Sənin mənimlə ədavətin varmı?
**Koroğlu:** Mənim xeyr. Bəs sənin mənimlə necə?
**Giziroğlu:** Mənimdə yoxdu. Mən bilmək istəyirdim ki, sənmi güclüsən ya mən? Onu da gördüm. Gəl bundan sonra dost olaq. Onlar əl verib görüşürlər. Giziroğlu qayıdır adamlarının yanına.
*“Koroğlu” uvertürası və ya “Giziroğlu Mustafa bəy” Xalq mahnısı səslənir.*

*(Son)*

Aşıq Ələsgərlə Aşıq Hüseyn Bozalqanlının görüşüb deyişməsi 1911-ci ilin payızında olmuşdur. Yubilyarın yaradıcılığını tanıtmaq üçün onların bu deyişməsi ilə bağlı müxtəlif şəkillər, maraqlı faktlardan ibarət materiallar tapıb slayd hazırlayıb təqdim edə bilərik. Dastan əsasında milli aşıq paltarı geymiş oxuculardan ibarət deyişmə səhnəsi hazırlaya bilərik. Kitabxanada bu deyişmə əsasında şeir müsabiqəsidə

keçirmək olar. *“Ustad aşığın ustadı ilə deyişməsi”*, *“İki sənətkar aşığın böyüklüyünü göstərən deyişmə”* başlığı ilə təşkil etdiyimiz müsabiqəni keçirməkdə məqsəd uşaqları aşıq yaradıcılığını öyrənməyə həvəsləndirmək, onlarda intonasiya qabiliyyətinin yaxşılaşmasına kömək etməkdir. Əvvəlcə, müsabiqənin keçirilməsi haqqında elan hazırlayırıq. Elan lövhədə vurulur. Həmçinin yaxın məktəblərə də paylanılır. Kitabxanaçı müəllimlə danışır və deyişməni uşaqlar arasında şeir formasında bölüb paylayır. Özüdə onların məşqlərində iştirak edir. Sonda gün təyin edilir. Mərhələlərlə qalib seçilir.

**Aşıq Ələsgərlə Aşıq Hüseynin görüşməsi**


Aşıq Hüseyn Bozalqalı


Aşıq Ələsgər

*Aşıq libası geyinmiş oxucular səhnəyə gəlir.*

Dastan başlayanda dədə ozanlar,
Gövhərdən qiymətli söz söyləyərlər.
Eşq olsun deyərlər, duyub qananlar,
Səbrlə, təmkinlə, döz söyləyərlər.
Ustadlar ustadı olub Ələsgər,
Sözüylə dünyanı zərgər tək bəzər.
Əsil aşıqlığın düz nizamnaməsi,
Ələsgər sözündə anla bu səsi.
Ustadı dinləyək görək nə deyir,
Hər bir sənətkara nələr diləyir.

Aşıq olub diyar-diyar gəzənin
Əvvəl başda pürkamalı gərəkdir,
Oturub-durmaqda ədəbin bilə,
Mərifət elmində dolu gərəkdir.
Xalqa həqiqətdən mətləb qandıra,

Şeytanı öldürə nəfsin yandıra.
El içində pak otura pak dura,
Doğru qəlbi doğru yolu gərəkdir.
Arif ola eyhamından söz qana,
Naməhrəmdən şərm eyləyə, utana.
Saat kimi könlü haqqa dolana,
Doğru qəlbi, doğru yolu gərəkdir.
Xalqa həqiqətdən mətləb qandıra,

Şeytanı öldürə nəfsin yandıra.
El içində pak otura pak dura,
Doğru qəlbi doğru yolu gərəkdir.
Ələsgər xüms ilə, zəkatın verə,
Əməlin mələklər yaza dəftərə.
Ha yanı istəsə baxanda görə,
Təriqətdə bu sevdalı gərəkdir.

Aşıqlıq güzgüdür elin gözündə,
Gərək diqqət olsun hər bir sözündə.
Dədə ozanları dərin bilməmiş,
Arif məclisinə olmasın qəmiş.
Bilmirəm, sözündən kənar dolansın,
Hər sözün söhbətin mənasın qansın.
Ustad kürəsində, ustad közündə,
Tər təmiz bişməmiş saz götürməsin.

Elin məclisində, ustad izində,
Həya, hörmətini heç itirməsin.
Şadlıqlar diləsin kürreyi-ərzə,
Olsun hər kəlməsi hikmətdən təzə.
*Hüseyn Bozalqanlı, görək nə deyir,*
Nələr arzulayır, nələr diləyir.
Ustadnaməni, ustad, iki söyləyər,
Hər kəsə sözünü bəyan eyləyər.

Hər cəfənglər saz götürüb, söz deyib,
Aşıqlıq adını sana çəkməsin.
Cibin, milçək, zənbur kimi sızıldar,
Qanqalın şəhdini şana çəkməsin.
Aşıqlıq elmində pürkamal gərək,
Divani, təcnisi, hər misal gərək.
Kotana qoşmağa, kəltə-kəl, gərək,
Kəldən qabaq arıq dana çəkməsin.
Eşqin kürəsində bişib, yanmayan,
Qafiyəsin, qələtini qanmayan.
Bədöy bəsləyibən, köhlən minməyən,
Ulağını bu meydana çəkməsin.
Ustadlar kəlamı bizə gələndə,
Xəstə qismim olur təzə gələndə.
Arif məclisində üzə gələndə,

Ondan yaxasını yana çəkməsin.
Lənət müxənnətə ara qatana,
İnsan gərək yalan sözdən utana.
Xəbər verin sınıq saxsı satana,
Cürdəyini hər sindana çəkməsin.
Qovğaya düşübdü bu yazıq Hüseyn,
Nə məndə can qalıb, nə də baş, beyin.

Tülkü bərələrdə aslana boyun,
Hünərini qana-qana çəkməsin.

Ustadnaməni ustad, üçəcən deyib,
Dastan dinləyənə ömür diləyib.
Ustaddan şagirdə varisdi saz-söz,
Qalayın ocağı, alovlansın köz.
Nazını çəkmişik illərdən bəri,
Saymasın yerində tuti dilləri.
Sənətkar sevdirər öz sənətini,
Duydurar xalqına məhəbbətini.
Məhərrəm Hüseynli görək nə deyir,
Bu xalqa ölməzlik, uğur diləyir.
Aləmi mat qoyan, səcdə qıldıran,
Ulu Qorqud nəfəsidir, aşıqlıq.
Düşündürən, xəyallara daldıran,
Haqq gəzənin öz səsidir, aşıqlıq,
Haqsızların əbəsidir, aşıqlıq.
Elmdi, aləmdi, sehrdi, sirdi,

Kök üstə köklənən məqsədi birdi.
Anlayan dostunu, düşməni, mərdi,
Sevənlərin nəfəsidir, aşıqlıq,
Sevməzlərin qəfəsidir, aşıqlıq.
Kamaldan kəm nə anlayar, nə qanar,
Keyliyini nə gizlədər, nə danar.
Məhərrəm tək, nə alışar, nə yanar,
Türk oğlunun nəfəsidir, aşıqlıq,
Yad oğlunun hər qəsiqir aşıqlıq.

**I oxucu:** Sizə kimdən deyim, kimdən danışım,
Ələsgərlə, Hüseyn görüşməsindən.

Olmuş həqiqətlə mən də barışım,
Üz-üzə, göz-gözə, yarışmasından.

**II oxucu:** İki kəhkəşandan, iki zirvədən,
İki səcdəgahdan, iki dədədən.
Birisi Göyçədə biri Tovuzda,
İkisi də ürəkdə, dildə, ağızda.

**III oxucu:** Biri ağsaqqaldı, doxsan yaşında,
Biri orta yaşlı, ağlı başında.

**IV oxucu:** Biri ucalıbdı elin gözündə,
Biri bac alıbdı söhbət, sözündə.

**V oxucu:** Biri səxavətli, cəsarətlidi,
Biri kəramətli hərarətlidi.

**VI oxucu:** Biri hünərvərdi sənəti ilə,
Biri mötəbərdi adəti ilə.

**I oxucu:** Biri haqq sevənin qulluğundadı,
Biri haqq sözünün bolluğundadı.

**II oxucu:** Ələsgər tanınmış ağsaqqal ustad,
Hüseyn söz mülkündə söylənir ad-ad.

**III oxucu:** İki oğuz türkü, söz, sənət mülkü,
İkisi də Tanrının bəndəyə görkü.

**IV oxucu:** Dədə Ələsgərin yetirmələri,
Uca bilirdilər bu zirvələri.
Hüseyn Bozalqanlı tanrı vergili,
Duyumu, deyimi həqiqət dili.

**V oxucu:** Eldə pardaqlanıb, ucalmışdılar,
Saz ilə, söz ilə tac almışdılar.

**VI oxucu:** İstedad adamı pürkamal olar,
Əməldə, işində xoş amal olar.

**I oxucu:** Onun da yanına şagirdlər gəlir,
Aşıq sənətini öyrənir, bilir.

**Aparıcı:** Sizə kimdən deyim, aşıq Hüseyndən,
Dostun dəvətinə gəzməyən gendən.
*Dostuna deyir:*
Toy var kəndimizdə buyurun ora,
Tez olun dəvətə verməyin ara.
Niftalı söylədi qonağı neynim?...

Deyişmə aşığın "Şeirlər" kitabının I cildində verilmişdir.

Aşıq Ələsgərlə deyişmə: // Aşıq Hüseyn Bozalqanlı. Əsərləri, I cild. - Bakı : Nurlan, 2008. - S. 150-159.

## Ədəbiyyat siyahısı

Əsərləri : iki clddə. I cild : şeirlər. - Bakı : Nurlan, 2008. - 296 s.
Şeirlər. - Bakı : Gənclik, 1973. - 107 s. - kiril əlifbası ilə.

Geyindi ; Dolandığım ; Düyməməmə ; Yoxdu : gəraylılar // Azərbaycan aşıqları.- Bakı : Çaşıoğlu, 2004. – S. 264-265.

## Haqqında

**Əyyublu M.** Ustad aşıqların irsinin qorunması sonrakı nəsillərin mənəvi borcudur // Palitra. - 2018. - 2 avqust. - № 136. - S. 13. ; 7 avqust. - № 137. - S. 13.

**Əyyublu M.** Aşıq Hüseyn Bozalqanlı yaradıcılığına nəzər // Kaspi. - 2018. - 8 sentyabr. - № 147. - S. 15.

**Aşıq Hüseyn Bolazqanlının** yeni dastanı əldə olunub / tərt. M. Əyyublu // Palitra. - 2018. - 12 sentyabr. - № 154. - S. 15.

**Aşıq Hüseyn Bozalqanlının** "Xalxal səfəri" dastanı belə başlayır... / tərt. M. Əyyublu // Palitra. - 2018. - 15 sentyabr. - № 157. - S. 15. ; 18 sentyabr. - № 158. - S. 15. ; 19 sentyabr. - № 159. - S. 15.

# Haqq aşığı

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 55
Çapa imzalanmışdır: 07.11.2018
Tirajı:100
Pulsuz